*"İnsan hüquqları aylığı"na yekun vurulmuşdur*

# Azərbaycanda insan hüquqlarının davamlı inkişafı uğurla həyata keçirilir



**Elmira SÜLEYMANOVA,
Azərbaycan Respublikasının
İnsan Hüquqları üzrə Müvəkkili
(Ombudsman).**

24 ilə yaxın dövr ərzində müstəqilliyinə yenidən qovuşmuş ölkəmizdə insan hüquq və azadlıqlarının müdafiəsi ən ümdə məsələlərdən biridir.

Ümummilli liderimiz Heydər Əliyev yenidən hakimiyyətə gəldikdən sonra ölkəmizdə digər sahələrdə olduğu kimi, insan hüquqları sahəsində də islahatlar həyata keçirilməyə başlanmışdı.

Belə ki, 1994-cü ilin ortalarında müstəqil dövlətin yeni Konstitusiya layihəsinin hazırlanmasının da təşəbbüskarı məhz ulu öndər Heydər Əliyev oldu. Onun təşəbbüskarlığı və sədrliyi ilə Azərbaycan Respublikasının yeni Konstitusiya layihəsinin hazırlanması üçün komissiyanın yaradılması, beynəlxalq hüquq normalarının və insan hüquqlarının ümumtanınmış prinsipləri əsasında, demokratik tərzdə və xalqın rəyi nəzərə alınaraq geniş müzakirə edilməsi, 12 noyabr 1995-ci ildə keçirilən ümumxalq səsverməsi yolu ilə ölkənin Əsas Qanununun qəbulu Azərbaycan Respublikasında hüquqi dövlət ideyasının formalaşmasında mühüm təkan oldu.

Konstitusiyamızda təsbit olunmuş insan və vətəndaş hüquqlarının daha effektiv təmin edilməsi məqsədilə ümummilli lider Heydər Əliyevin ölkə Prezidenti olaraq, 22 fevral 1998-ci il tarixdə imzaladığı fərmanda insan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının layihəsinin, insan hüquqları üzrə səlahiyyətli müvəkkil təsisatının yaradılmasına dair təkliflərin hazırlanması və digər məsələlər öz əksini tapmışdır.

Ulu öndərin bu fərmanından irəli gələn vəzifələri nəzərə alaraq, insan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirlərin səmərəliliyini artırmaq məqsədilə imzaladığı 1998-ci il 18 iyun tarixli 832 saylı sərəncamı ilə "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq edilmişdir. Dövlət Proqramında İnsan hüquqları üzrə Azərbaycan Respublikasının səlahiyyətli müvəkkili təsisatının yaradılması və digər mühüm məsələlər nəzərdə tutulmuşdur.

Ölkə başçısı cənab İlham Əliyevin uğurlu siyasəti nəticəsində ölkəmizdə insan hüquqlarının davamlı inkişafı və təmin olunması istiqamətində müvafiq qanunvericilik aktları qəbul olunur, zəruri tədbirlər həyata keçirilir. Ölkəmiz gündən-günə inkişaf edir, uğurla irəliləyir.

Artıq xoş bir tarixə çevrilmiş I Avropa Oyunlarını qeyd etmək istərdim. Dövlət və hökumət başçılarının, 50 ölkədən 6.000-dən çox idmançının iştirakı ilə keçirilən və dünya ölkələrində yayımlanan möhtəşəm açılış mərasimində ilk Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva çıxış edərək, ölkəmizdə sürətli inkişaf, irəliləyiş və müasirləşmənin müşahidə olunduğunu, respublikamızın zəngin tarixə, mədəniyyətə və adət-ənənələrə sadiq qaldığını, multikulturalizm və tolerantlıq, dostluq və qonaqpərvərlik, ahəngdarlıq və həmrəyliyin həyat tərzimizin ayrılmaz hissəsi olduğunu qeyd etmişdir. Sevindirici haldır ki, bu oyunlarda idmançılarımızın uğurlu nəticələrinə görə ölkəmiz iştirakçı dövlətlər arasında ikinci yeri tutmuşdur. Qitənin ən böyük idman yarışı insan hüquqlarına hörmət və ədalət prinsipləri əsasında keçirilmişdir.

Azərbaycan dövləti haqq və ədalət, tolerantlıq prinsipinə söykənərək ölkəmizdə insan hüquqlarının təmin olunması istiqamətində davamlı olaraq strateji sənədlər qəbul edir və uğurla həyata keçirir.

Həyata keçirilən islahatların məntiqi davamı olaraq, Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2006-cı il tarixli və 27 dekabr 2011-ci il tarixli sərəncamları ilə Azərbaycan Respublikasında İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planı və Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı təsdiq edilmişdir.

Müvəkkilin təşəbbüsü ilə dövlət qurumlarının, əhalinin müxtəlif qruplarının, vətəndaş cəmiyyətinin Milli Fəaliyyət Planında və Milli Fəaliyyət Proqramında fəal iştirakını təmin etmək və adıçəkilən sənədləri təbliğ etmək məqsədilə Müvəkkil tərəfindən 58 şəhər və rayon əhatə olunmaqla ictimai dinləmələr keçirilmişdir.

Ölkə başçısı cənab İlham Əliyevin 18 iyun 2007-ci il tarixli sərəncamı ilə hər il iyunun 18-nin ölkəmizdə İnsan Hüquqları Günü kimi qeyd edilməsi bu sahəyə yeni imkanlar açmaqla, yeni yanaşma tərzi aşılamışdır.

Müstəqil dövlətimizin milli bayramlarından və əlamətdar günlərindən biri - "İnsan Hüquqları Günü" ölkəmizdə təntənəli şəkildə qeyd olunmaqla yanaşı, bizlər üçün, ümumiyyətlə, insan hüquqlarının müdafiəsi ilə məşğul olan hər bir kəs üçün olduqca əziz və önəmli bir günə çevrilmişdir. Azərbaycan öz Milli İnsan Hüquqları Gününü qeyd edən yeganə ölkədir.

Təqdirəlayiq haldır ki, belə bir günün dövlət səviyyəsində qeyd edilməsi Azərbaycanın hüquqi dövlət quruculuğu yolunda inamla irəlilədiyini və demokratik prinsiplərə, ümumtanınmış insan hüquqları dəyərlərinə böyük önəm verdiyini bir daha nümayiş etdirir.

Bu baxımdan Ombudsman təsisatının həyata keçirdiyi fəaliyyətin əsas məqsəd və məramı insan hüquqlarının həyata keçirilməsinə, pozulmuş insan hüquqlarının bərpasına, vətəndaş cəmiyyətinin, demokratiya meyarlarına cavab verən dövlətin və buna uyğun insan hüquqları sisteminin yaradılmasına yönəlmişdir.

Bu il ölkəmizin əsas qanunu olan Konstitusiyanın qəbul olunmasının 20 illiyi qeyd olunur ki, bu məqsədlə də Müvəkkilin təşəbbüsü ilə 12 noyabr ərəfəsində "Konstitusion hüquqların qorunmasında Milli İnsan Hüquqları təsisatlarının rolu" mövzusunda Ombudsmanların XIII Bakı Beynəlxalq konfransının keçirilməsi nəzərdə tutulur.

Ombudsmanın təşəbbüsü ilə ənənəvi olaraq hər il "18 iyun - İnsan Hüquqları Günü" ərəfəsində mayın 18-dən iyunun 18-dək respublikamızda "İnsan hüquqları aylığı" keçirilir. Yerli və mərkəzi icra hakimiyyəti orqanlarına, eləcə də, vətəndaş cəmiyyəti üzvlərinə QHT və KİV-lərə, icmalara, ümumilikdə isə hər kəsə bu ərəfədə tədbirlərin həyata keçirilməsi, insan hüquqlarına diqqətin bir qədər də artırılması, bu hüquqların təmini və təbliği məqsədini daşıyan çağırış edilir.

Bu "Aylıq" çərçivəsində hüquq-mühafizə orqanları tərəfindən tabeçilikdə olan qurumlara müvafiq tədbirlərin görülməsi məqsədilə məktublar ünvanlanmış, tabelikdə olan DİN-in Polis Akademiyasında, MTN-in Heydər Əliyev adına Akademiyasında, Ədliyyə Akademiyasında "Milli qanunvericilikdə insan və vətəndaş hüquq və azadlıqlarının təsbiti", "İnsan hüquqları ilə bağlı beynəlxalq-hüquqi aktlar və milli qanunvericilik", "İnsan hüquqlarının müdafiəsi sahəsində milli mexanizmlər", "İnsan hüquqlarının mahiyyəti, əsas xüsusiyyətləri və inkişaf tendensiyaları", "İnsan hüquq və azadlıqlarının qorunmasında ədliyyə orqanlarının funksiyaları", "İnsan hüquq və azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyası və Avropa Məhkəməsi" mövzularında müəllimlər tərəfindən mühazirələr oxunmuş, əməkdaşlar üçün keçirilən tədris məşğələlərində insan hüquqlarının təmin olunması ilə bağlı respublikamızda həyata keçirilən ardıcıl və sistemli tədbirlərin əhəmiyyətinə dair mövzularda dərslər keçirilmiş, cinayət törətməyə meyilli olan uşaqlar vaxtında aşkar olunaraq zəruri tədbirlər görülmüş, tüfeylilik və dilənçilik hallarının, onların belə əməllərə təhrik olunmasının profilaktikası, habelə pedaqoji mühitdən yayınan məktəblilərin təhsilə qaytarılması istiqamətində mühüm tədbirlər görülmüşdür.

Müdafiə Nazirliyi tərəfindən hərbi hissə və müəssisələrdə "İnsan hüquqlarının müdafiəsi dövlətin ali məqsədidir" mövzusunda seminar və "18 iyun - Azərbaycanda Milli İnsan Hüquqları Günü" mövzusunda mühazirələr təşkil edilmiş, Silahlı Qüvvələrdə hərbi qulluqçuların mövcud qanunvericilikdə nəzərdə tutulmuş hüquq və azadlıqları barədə məlumatlar hərbi hissələrdə şəxsi heyətə çatdırılmışdır.

İqtisadiyyat və Sənaye Nazirliyi və tabeliyində olan qurumlar tərəfindən paytaxtda və regionlarda "Gənclərin sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi", "Sahibkarların hüquqlarının qorunması", "Azərbaycanda istehlakçıların hüquqları qorunur" mövzusunda sahibkarların, xüsusilə də gənc sahibkarların və sahibkarlıq fəaliyyətinə yeni başlayanların iştirakı ilə silsilə tədbirlər təşkil edilmişdir. Eyni zamanda, Sahibkarlığa Kömək Milli Fondu tərəfindən "Sahibkarlığın güzəştli kreditləşməsi məsələləri"nə dair regionlarda ümumilikdə 220 sahibkarın iştirakı ilə forumlar təşkil edilmiş, 188 sahibkarlıq subyektinə Fondun vəsaitləri hesabına müvəkkil kredit təşkilatları vasitəsilə güzəştli kreditlər təqdim edilmiş, həmçinin "Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına güzəştli kreditlərin verilməsi mexanizmi, investisiya layihələrinin hazırlanması və təqdim olunması" mövzusunda treninqlər keçirilmişdir. Bununla yanaşı, Bakı Biznes Tədris Mərkəzinin Gəncə nümayəndəliyinin, Ombudsman Aparatının Gəncə Regional Mərkəzinin və "Sahibkar Qadınlar" İctimai Birliyinin birgə təşkilatçılığı ilə Gəncə şəhərində "İnsan hüquqlarının qorunması" mövzusunda seminar keçirilmişdir.

Səhiyyə Nazirliyi tibb işçiləri tərəfindən müxtəlif xəstəliklərin profilaktikası və erkən aşkar edilməsi məqsədilə əhalinin tibbi müayinələrdən keçirməklə yanaşı, "Sağlamlığın qorunması", "Gənc nəslin sağlam böyüməsi" və digər mövzularda maarifləndirmə işləri aparılmışdır.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən respublikasının müxtəlif regionlarında ali və orta təhsil müəssisələrində, idarə və təşkilatlarda "Ətraf mühitin mühafizəsində insan hüquqları", "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ekologiya və təbiət ərazilərinin inkişafına göstərdiyi diqqət və qayğı", "Yaşıllıqların mühafizəsi", "Azərbaycan Respublikasının qoşulduğu ekoloji konvensiyalar", "Uşaqlara təmiz su - təmiz həyat" və digər mövzularda əhalinin ekoloji maarifləndirilməsi, onların bu sahədə məlumatlılığının artırılmasına xidmət edən müxtəlif tədbirlər həyata keçirilmişdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən respublikanın 24 rayon (şəhər) məşğulluq mərkəzlərində "İşaxtaran və işsiz vətəndaşların məşğulluq sahəsində hüquqlarının qorunması" mövzusunda "dəyirmi masa" müzakirələri, həmçinin Avropa İttifaqının Əməyin Mühafizəsi Agentliyinin ekspertlərinin iştirakı ilə "Sağlam və təhlükəsiz əmək şəraitinin təmin edilməsi" mövzusu üzrə seminar keçirilmişdir. Bununla yanaşı, Əmək və Sosial Problemlər üzrə Elmi-Tədqiqat və Tədris Mərkəzində "Gənclərin işə düzəlmə prosesində hüquq və vəzifələri" mövzusu üzrə "dəyirmi masa" və tibb bacıları üçün seminar təşkil olunmuşdur.

Milli Televiziya və Radio Şurası, Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dəstək Fondu və Mətbuat Şurası tərəfindən "Aylıq" çərçivəsində "İnformasiya əldə etmək" haqqında qanunun izahı ilə bağlı KİV nümayəndələri və əhali arasında maarifləndirmə tədbirləri keçirilmiş, regional televiziyalarda insan hüquqlarını təbliğ edən mövzularda "dəyirmi masa"lar təşkil edilmişdir.

Dövlət Miqrasiya Xidməti tərəfindən Mərkəzi Aparatda və regional idarələrdə Xidmət işçilərinin və ictimaiyyətin iştirakı ilə "Miqrasiya orqanlarında qulluq keçən işçilərin etik davranış qaydaları və bu qaydaların pozulmasına görə məsuliyyət, "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin və onların ailə üzvlərinin hüquqlarının qorunması istiqamətində Dövlət Miqrasiya Xidməti tərəfindən aparılan işlərin vəziyyəti", "Vətəndaşsızlıq hallarının aradan qaldırılması istiqamətində görülmüş tədbirlər", "İnsan və vətəndaş hüquq və azadlıqlarına hörmət, qanunçuluq və humanizm prinsipləri Dövlət Miqrasiya Xidmətinin əsas fəaliyyət istiqamətlərindən biri kimi" mövzularda tədbirlər keçirilmişdir.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən respublikanın müxtəlif bölgələrində məcburi köçkünlərin müvəqqəti məskunlaşması məqsədilə salınmış qəsəbələrdə yerli icra hakimiyyəti orqanlarının və məcburi köçkün icmalarının iştirakı ilə tədbirlər keçirilmiş, iştirakçıların hüquq düşüncəsinin və mədəniyyətinin inkişaf etdirilməsi, eyni zamanda insan hüquqlarının həyata keçirilməsinin təminatları barədə geniş müzakirələr aparılmışdır.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən "Aylıq" çərçivəsində paytaxtda və regionlarda "Məişət zorakılığı və qadın hüquqları", "Qadına qarşı zorakılıq insan hüquqlarının pozulmasıdır", "Erkən nikaha yox deyək", "İnsan alverinin qurbanına çevrilməyək", "Hüquqlarımızı bilək", "Mənim hüquq və vəzifələrim" və digər mövzularda maarifləndimə işləri aparılmış, "İstedadlı uşaqlar festivalı - 2015" adlı tədbir, habelə "Onlar hamı kimidir" adlı yazı müsabiqəsi keçirilmiş, uşaqların ekskursiyaları təşkil edilmişdir.

Həmçinin Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən bir sıra şəhər və rayonlarda, o cümlədən cəzaçəkmə müəssisələrində din xadimləri, dini icma sədrləri və ağsaqqalların iştirakı ilə "İnsan hüquq və azadlıqları, İslamda insan hüquqlarına verilən dəyər", "Azərbaycan qanunvericiliyində vicdan azadlığı", "Azərbaycan dinlərarası tolerantlığın məkanı kimi" və digər mövzularda tədbirlər keçirilmişdir.

"Aylıq" çərçivəsində insanlara yüksək xidmət göstərilməsi üçün "qaynar xətt" və çağrı mərkəzləri fəaliyyətlərini daha da təkmilləşdirmişdir. Mədəniyyət və Turizm Nazirliyi tərəfindən respublikanın mədəniyyət mərkəzləri, onların filialları, Mərkəzi kitabxanalarda və digər klub müəssisələrində müxtəlif mövzularda hüquq-mühafizə orqanlarının, alimlərin, ictimai xadimlərin iştirakı ilə "dəyirmi masa" müzakirələri keçirilmiş, bir sıra mövzularda uşaqlar arasında inşa və rəsm müsabiqələri təşkil edilmişdir.

Müəllif Hüquqları Agentliyi tərəfindən müəlliflər, digər hüquq sahibləri və istifadəçilər kateqoriyasına aid olan şəxslər üçün ənənəvi görüşlər təşkil edilmiş, onların hüquqi biliklərinin artırılması və əqli mülkiyyət mədəniyyətinin formalaşdırılması istiqamətində maarifləndirmə tədbirləri keçirilmiş, əqli mülkiyyət hüquqlarının qorunması ilə bağlı ölkəmizdə aparılan genişmiqyaslı işlər barədə kütləvi informasiya vasitələrində məlumatlar verilmişdir.

Ümumilikdə "Aylıq" çərçivəsində insan hüquqlarına dair dövlət qurumlarının təşkil etdiyi tədbirlər əsasən "Heydər Əliyev və insan hüquqları", "Əsas insan və vətəndaş hüquqları və azadlıqları", "İnsan hüquqları ilə bağlı beynəlxalq-hüquqi aktlar", "İnsan hüquq və azadlıqlarının Konstitusiya təminatı", "İnsan hüquqlarının müdafiəsi dövlətin ali məqsədidir", "İnsan hüquq və azadlıqlarının təmin edilməsində dövlət xidmətlərinin rolu", "Mənim hüquqlarım", "Öz hüquqlarını bil, insan alverinin qurbanı olma", "Hüquq bərabərliyi - insan hüquqlarının əsas konspeti", "Vergi hüquq münasibətləri və onun növləri", "Əsas məqsəd işçilərin hüquqlarının bərpası və qorunmasıdır", "Sahibkarların hüquqlarının müdafiəsi", "Elektron ticarət və istehlakçı hüquqları", "Vətəndaş hüquqları", "Sağlam ətraf mühit və sağlam həyat tərzi", "Ahılların hüquqlarının təmin edilməsi", "İnternetdə fikir və söz azadlığı", "Müraciət hüququ", "Fövqəladə hallarda insan hüquq və azadlıqlarının müdafiəsi", "Texnogen qəzalar zamanı insan hüquqlarının qorunması", "Məhkumların hüquq və vəzifələri", "Vətəndaşların əmək hüquqları" və s. mövzularda olmaqla hüquqi maarifləndirmə məqsədini daşımışdır.

Həmçinin QHT-lər tərəfindən də Bakı, Saatlı, Sabirabad, İsmayıllı, Cəlilabad, Quba, Qusar, Şamaxı, Gəncə və başqa şəhər və rayonlarda "Məhbusların hüquqlarının müdafiəsi", "İnsan alveri ilə mübarizə, cinayətkarlığa qarşı mübarizədə polis-vətəndaş münasibətlərinin gücləndirilməsi", "Cəzaçəkmə müəssisələrindən azad olunanların reabilitasiyası", "Qadınların əmək hüquqlarının qorunması", "İnsan alveri problemi", "İnsan alverinin qurbanı olan qadınlar üçün sığınacağın yaradılması" mövzusunda seminarlar keçirilmiş, "Müharibədə itkin düşmüş şəxslərin hüquqi yardıma ehtiyacı olan ailələr üçün psixoloji yardım xidməti" təşkil edilmişdir.

Müvəkkil tərəfindən "Aylıq" çərçivəsində tədbirlərin həyata keçirilməsi və ictimaiyyətin bu prosesə qoşulmasının təmin edilməsi məqsədilə şəhər və rayon icra hakimiyyətlərinə müraciət edilmişdir. Müraciətə əsasən regionlarda silsilə maarifləndirmə tədbirlər, inşa və rəsm müsabiqələri, sərgilər təşkil edilmişdir. Belə ki, şəhər və rayon icra hakimiyyətləri tərəfindən əsasən "İnsan hüquqları", "İnsan hüquqlarının təminatı dövlətimizin diqqətindədir", "İnsan alveri qurbanı olmaqdan cəmiyyətimizi qoruyaq", "Erkən nikah sosial problem kimi", "Vətəndaşların hüquqi maarifləndirilməsində QHT-lərin rolu", "Tolerantlığın Azərbaycan modeli", "Əlilliyi olan şəxslərin, şəhid ailələrinin və aztəminatlı ailələrin sosial hüquqlarının qorunması", "İstehlakçıların hüquqlarının qorunması", "Narkomaniyaya qarşı mübarizə", "Bizim əmək hüquqlarımız", "Azyaşlılar arasında mənəvi-psixoloji iqlimin sağlamlaşdırılması", "Seçki hüququ", "Əhalinin müxtəlif qruplarının hüquqlarının müdafiəsi", "Uşaq və gənclər arasında sağlam ətraf mühit və sağlam həyat tərzinin təbliği" və çoxsaylı digər mövzularda maarifləndirmə tədbirləri həyata keçirilmiş, yerli KİV-də məlumatlar işıqlandırılmışdır. Bununla yanaşı, əhalinin səyyar qəbulları keçirilmiş, onların müraciətləri dinlənilmiş və müvafiq tədbirlər görülmüşdür.

Milli və etnik azlıqların məskunlaşdığı rayonların icra hakimiyyəti orqanlarından aldığımız məlumatlarda milli azlıqların nümayəndələri ilə də görüşlərin təşkil olunduğu, onlara hüquq və vəzifələrinin izah olunduğu bildirilmişdir.

Ərazisi işğal olunmuş, əhalisi məcburi köçkün düşərək respublikanın digər rayonlarında məskunlaşmış rayonların icra hakimiyyəti orqanları tərəfindən də fəallıq nümayiş etdirilmiş, ardıcıl tədbirlər həyata keçirilmişdir.

"İnsan hüquqları aylığı" çərçivəsində Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin, Aparatın əməkdaşlarının və Ombudsmanın Gəncə, Şəki, Quba və Cəlilabada yerləşən və ətraf rayonları əhatə edən regional mərkəzlərinin iştirakı ilə silsilə tədbirlər Bakı şəhərində və respublikanın rayonlarında davam etdirilmiş və bununla bağlı mütəmadi olaraq KİV-lərə məlumat verilmişdir. Ombudsmanın nümayəndələri yerlərdə təşkil olunmuş tədbirlərdə insan hüquqlarına dair müxtəlif mövzularda məruzələr, çıxışlar etmişlər.

Ombudsman Aparatının əməkdaşları 18 iyun - İnsan Hüquqları Günündə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Şağan qəsəbəsindəki Sağlamlıq imkanları məhdud uşaqlar üçün 1 saylı sosial xidmət müəssisəsi və Əlilliyi olan şəxslər üçün Müalicə pansionatı, habelə Buzovnadakı 1 saylı Psixonevroloji Sosial xidmət müəssisəsində olmuş, burada fiziki imkanları məhdud olan uşaqlar, əlillər və ahıllarla görüşmüşlər. Bununla yanaşı, Aparatın əməkdaşları Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin 4 saylı cəzaçəkmə müəssisəsində və Tərbiyə Müəssisəsində olmuş qadın və yeniyetmə məhkumlarla görüşmüş, onların vəziyyəti ilə maraqlanmışlar.

Yeri gəlmişkən, Müvəkkil 4 saylı cəzaçəkmə müəssisəsinə başçəkmə həyata keçirmiş, başçəkmə zamanı Ombudsman tərəfindən həmin müəssisədə 100-dən çox məhkum qadın fərdi qaydada dinlənilmiş, habelə 30 nəfər öz xahişi ilə təkbətək qəbul edilmiş, ərizə və müraciətlərinə baxılmışdır. Məhkumlara hüquqları, əfvlə bağlı müvafiq qanunvericiliyin tələbləri, Ombudsmanın səlahiyyətləri izah edilmiş, qaldırdıqları sosial və ailə məsələləri ilə bağlı onlara hüquqi məsləhətlər verilmişdir. Müvəkkil səlahiyyətləri çərçivəsində onların müraciətlərinin həlli istiqamətində tədbirlər həyata keçirir.

Həmçinin İşgəncələrin qarşısının alınması üzrə Milli Preventiv Mexanizm (MPM) funksiyalarının icrası məqsədilə Ombudsman və Aparatın əməkdaşları tərəfindən müvəqqəti saxlanma təcridxanalarında, istintaq təcridxanalarında, cəzaçəkmə müəssisələrində başçəkmələr həyata keçirilmiş, saxlanılan şəxslərlə görüşlər təşkil olunmuş, onlara ünvanlanan hüquqi maarifləndirmə işləri həyata keçirilmişdir.

Bununla yanaşı, bu il Bakı şəhərinin hər rayonu üzrə bir, respublikamızın Zaqatala, Balakən, Samux, Şəmkir, Masallı, Astara, Xaçmaz və Quba rayonlarının hərəsindən bir orta ümumtəhsil məktəbi seçilməklə, ümumilikdə 20 məktəbdə Uşaq hüquqlarının pilləli tədrisi həyata keçirilmiş və "Aylıq" ərəfəsində başa çatmışdır.

Ümumilikdə "Aylıq" çərçivəsində Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının həyata keçirilməsinə məsul olan dövlət qurumları, şəhər və rayon icra hakimiyyətləri tərəfindən müxtəlif mövzularda çoxsaylı tədbirlər keçirilmiş, onlarca sərgilər və inşa müsabiqələri təşkil edilmişdir ki, bu da minlərlə insanı əhatə etmişdir. Bu statistik rəqəmlər bir daha bir ənənə olaraq hər il belə "Aylığ"ın keçirilməsinin mühüm əhəmiyyət daşıdığını sübut edir.

Azərbaycanın yeni-yeni uğurları, həyata keçirilən islahatlar, beynəlxalq nüfuzu davamlı inkişafa və insan hüquqlarının etibarlı təmin olunmasına xidmət edən məqsədyönlü fəaliyyətin nəticəsidir.

Dünyada yaranmış yeni şərait qarşıya yeni vəzifələr qoyur. Məhz bu vəzifələrin həyata keçirilməsi baxımından Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyası olduqca önəmlidir. Konsepsiyanın uğurlu icrası Azərbaycanda insan hüquqlarının səmərəli təmini baxımından mühüm əhəmiyyət kəsb edir.

Ölkəmizdə keçirilən IV Bakı Beynəlxalq Humanitar Forumundakı açılış nitqində cənab Prezident hər bir sahədə ictimai rəyin müəyyən edildiyi, müvafiq qurumlar tərəfindən öz səlahiyyətləri çərçivəsində tədbirlər həyata keçirildiyi və ictimai nəzarətin zəruriliyi diqqətə çatdırmışdır.

Həmçinin ölkə Prezidenti tərəfindən təsdiq edilmiş və 2014-cü ilin iyunun 1-dən qüvvəyə minmiş "İctimai iştirakçılıq haqqında" qanun bu təşəbbüslərin daha geniş yayılması üçün böyük imkanlar yaradır. Bu isə bir daha Azərbaycanda insan hüquqlarının təmin olunmasına dövlət dəstəyinin bariz nümunəsidir.

Ümumiyyətlə, hər hansı bir sahə üzrə "Aylıq"ların və müntəzəm monitorinqlərin keçirilməsinin əhəmiyyəti də insanların iştirakçılığı, kütləviliyi, qərar qəbul edilməsində vətəndaş fəallığı, bütün sahələrdə davamlı inkişaf proseslərinə qatılması, təşəbbüskarlıqları, bir sözlə, Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının səmərəli həyata keçirilməsinə və demokratik idarəetmənin təkmilləşdirilməsinə xidmət edir.

Ölkəmizdə insan hüquqlarının təmin olunması istiqamətində hamımız birgə çalışmalıyıq. Bu, hər birimizin vətəndaşlıq borcudur.